MƏKTƏBİN DEMOKRATİK FUNKSİONALLIĞI ÜÇÜN ŞAGİRDLƏR ÖZÜNÜİDARƏETMƏSİ

# HİSSƏ 1

# ŞAGİRDLƏR ÖZÜNÜİDARƏETMƏSİ

USAID
AMERİKA XALQINDAN

PH international
ADVANCING SOCIETIES, CONNECTING PEOPLE

TSİALA QAQNİDZE
LİANA KOBESAŞVİLİ

# MƏKTƏBİN DEMOKRATİK FUNKSİONALLIĞI ÜÇÜN ŞAGİRDLƏR ÖZÜNÜİDARƏETMƏSİ

## HİSSƏ I

## ŞAGİRDLƏR ÖZÜNÜİDARƏETMƏSİ

USAID
AMERİKA XALQINDAN
PH international
ADVANCING SOCIETIES, CONNECTING PEOPLE

# MƏKTƏBİN DEMOKRATİK FUNKSİONALLIĞI ÜÇÜN ŞAGİRDLƏR ÖZÜNÜİDARƏETMƏSİ

ŞAGİRDLƏR ÖZÜNÜİDARƏETMƏSİ

**MÜƏLLİFLƏR:**

TSİALA QAQNİDZE
LİANA KOBESAŞVİLİ

**DİZAYNER:**

TAMAR NİKOLEİŞVİLİ

**REDAKTOR:**

NATİA NATSVLİŞVİLİ

**QRUPUN RƏHBƏRİ:**

MAKA BİBİLEİŞVİLİ

**2022-ci il**

Resurs, Amerika xalqının dəstəyi və ABŞ Beynəlxalq İnkişaf Agentliyinin səyləri əsasında hazırlanıb. Daxilində əks olunan məlumat və ifadə olunan fikirlər üzrə məsuliyyət yalnız müəlliflərə məxsusdur və o PH International, ABŞ Beynəlxalq İnkişaf Agentliyi və ya Amerika Birləşmiş Ştatlar Hökumətinin fikirlərini əks etdirmir.

# GİRİŞ

2022-2027-ci illərdə PH International təşkilatı tərəfindən Amerika Birləşmiş Ştatlarının Beynəlxalq İnkişaf Agentliyinin (USAID) maliyyələşdirməsi və Gürcüstanın Təhsil və Elm Nazirliyinin dəstəyi ilə Gürcüstanda USAID-in vətəndaş təhsili proqramı həyata keçirilir.

Proqramın məqsədi, yüksək vətəndaş şüuruna malik, mülki proseslərdə iştirak edən gənclərin yetişdirilməsidir. Proqram vətəndaş təhsilinin təlim-tədris prosesində texnologiyaların tətbiqini, məktəbdə demokratik mədəniyyətin tətbiqini təşviq etməyi, biznes və məktəblər arasında əlaqə yaratmağı nəzərdə tutur.

Bələdçi, proqram çərçivəsində hazırlanıb və şagirdlər özünüidarəetməsinin fəaliyyəti ilə bağlı tövsiyələri ehtiva edir. Resurs üç hissədən ibarətdir:

- Birinci hissədə şagirdlər özünüidarəetməsi üzvləri üçün nəzərdə tutulmuş, özünüidarəetmənin rolu və fəaliyyəti haqqında məlumatla tanış olacaqsınız;

- İkinci hissə məktəb administrasiyası üzvlərinə, şagirdlər özünüidarəetməsinin fəaliyyətinə dəstək olmağa kömək edəcək;

- Üçüncü hissənin məqsədi, Təhsil Resurs Mərkəzləri nöqteyi-nəzərindən şagirdlər özünüidarəetməsini gücləndirməkdir.

Verilmiş resurs, şagirdlər özünüidarəetməsi üzvlərinə məktəb strukturundakı[1] rolları və yerini düzgün təyin etmə imkanı verəcək. Onlara məktəb həyatına daha fəal qoşulmağa, məktəb üçün mühüm qərarların verilməsi prosesində iştirak etməyə, məktəbin demokratik mədəniyyətinin inkişafına töhfə verməyə kömək edəcək.

[1] Qoqliçidze.A. Məktəb özünüidarəetməsində iştirak, Şagird Kitabı, 2011. səh 24

# MƏZMUN

## ŞAGİRDLƏR ÖZÜNÜİDARƏETMƏSİ

Şagirdlər özünüidarəetməsi və onun formalaşmasının qısa tarixi ........ 1

Məktəbin idarəolunmasında şagirdlər özünüidarəetməsinin rolu
və funksiyaları ........ 2

Məktəb özünüidarəetməsinin strukturu və fəaliyyəti ........ 2

Şagirdlər özünüidarəetməsinin yerli təcrübəsi ........ 4

**Nümunə 1** “Şagirdlər özünüidarəetməsi zorakılığa qarşı" ........ 5

**Nümunə 2** “Məktəbdaxili nizam-intizam qaydaları və şagirdlər
özünüidarəetməsi” ........ 6

## ŞAGİRDLƏR ÖZÜNÜİDARƏETMƏSİ VƏ ONUN FORMALAŞMASININ QISA TARİXİ

Şagirdlər özünüidarəetməsi[2] məktəbin demokratik idarə sisteminin tərkib subyektlərindən biridir. O, məktəbin idarəetmə halqasında şagirdlərin səsini təşkil edir. Şagirdlər özünüidarəetməsi, hər bir üzvünə qanunla müəyyən edilmiş funksiyaları yerinə yetirərək praktiki olaraq biliyə yiyələnməmək, bacarıqlarla təchiz olunmaq və onu demokratik cəmiyyətin üzvünə çevirəcək yanaşmaların formalaşması imkanı verir. Şagirdlər özünüidarəetməsi üzvləri ictimai fəaliyyətə, xüsusilə məktəbdə mövcud problemlərin və ehtiyacların müəyyən edilməsi və həll olunmasında, məktəb şagirdlərinə dəstək olacaq fəaliyyətdə fəal şəkildə qoşulmalıdırlar. Bu da öz növbəsində şagirdlərin sosial təcrübəsini zənginləşdirir, onların mülki inamlarını, demokratik dəyər və münasibətlərini formalaşdırır.

Gürcüstanda şagirdlər özünüidarəetməsi ideyası, məktəb özünüidarəetməsinin hüquqi tənzimlənməsi[3] başlamazdan çox daha əvvəl yaranmışdı. Hələ keçən əsrin başlanğıcında Dimitri Uznadze düşünürdü ki, "Məktəb kiçik dövlətdir və bu dövlətin vətəndaşları onun tərbiyə olunan uşaqlarıdır. Məktəb demokratik qurulsun, onun idarəolunması, mahiyyətcə şagirdlərin əlinə keçsin, idarəçiliyin canlı praktikası yeniyetmə nəslin mülki xasiyyətini formalaşdıracaq."[4]

Amerikada[5], artıq 19-cu əsrdə, məktəbin fəaliyyəti məsuliyyətini öz boyunlarına götürən şagirdlər ortaya çıxır. Onların, məktəb özünüidarəetməsi/hökümətinin fəallığı XIX əsrin sonu və XX əsrin başlanğıcında daha artır.

Polşalı müəllimlər – İanuş Korkaç və Aleksandr Kaçinski (XX əsr) düşünürdülər ki, cəzalandırma və sərt disiplin əvəzinə, şagirdlərə qərarın verilməsinə təsir göstərmək imkanı verilməsi lazım idi ki, bu da öz növbəsində onların məsuliyyətlərini artıracaqdı.

---

[2] Gürcüstan Təhsil və Elm Nazirinin əmri N448. "Ümumtəhsil müəssisələrinin ictimai qanunvericiliyə uyğun olaraq hüquqi şəxs kimi yaradılması və dövlət məktəblərinin nizamnaməsinin təsdiq edilməsi haqqında". 15 sentyabr 2005-ci il

[3] Ümumi Təhsil Haqqında Gürcüstan qanunu. Fəsil X. Ümumtəhsil müəssisəsinin şagirdlər özünüidarəetməsi

[4] D. Uznadze, Ümumtəhsil məktəbinin məqsədləri, 1917-ci il.

[5] https://www.encyclopedia.com/children/encyclopedias-almanacs-transcripts-and-maps/student-government

## MƏKTƏBİN İDARƏOLUNMASINDA ÖZÜNÜİDARƏETMƏSİNİN ROLU VƏ FUNKSİYALARI

Şagirdlər özünüidarəetməsi, məktəbin struktur vahidləri arasında Qəyyumlar Şurasında (məktəbin ali seçici orqanında) seçilmiş nümayəndəsi olan halqalardan biridir. Müvafiq olaraq, şagirdlər özünüidarəetməsi öz nümayəndəsi vasitəsilə, Qəyyumlar Şurasının həyata keçirdiyi bütün fəaliyyətlərdə iştirak edir.
Şagirdlər özünüidarəetməsinin düzgün fəaliyyəti məktəbdə demokratik mədəniyyətin inkişafına, şagirdlərdə demokratik dəyərlərin mənimsənməsinə, məsuliyyəti öz üzərinə götürməyə imkan yaradır, bu öz növbəsində onların qərar vermək prosesində müstəqilliklərini artırır.

### ŞAGİRDLƏR ÖZÜNÜİDARƏETMƏSİ:

- Qəyyumlar Şurasında məktəbin əldə etdiyi qrantın istifadəsi ilə bağlı təkliflər irəli sürür;
- Məktəbdaxili nizam-intizam qaydaları haqqında tövsiyələr işləyib-hazırlayır;
- Üzvlərin beşdə birinin təşəbbüsü ilə məktəb klubları yaradır.
- Qəyyumlar Şurasında məktəb üçün mühüm məsələlər haqqında təkliflər irəli sürür;
- Qəyyumlar Şurasında və Disiplin Komitəsində öz nümayəndəsini seçir.

Şagirdlər özünüidaəetməsinin Qəyyumlar Şurasında öz nümayəndəsi olduğundan, o avtomatik şəkildə məktəbdəki proseslərin – məktəbin tədris planının qiymətləndirilməsi, maliyyə və insan/kadr siyasənin idarə olunması, məktəbin gələcək inkişafının baxışları və məqsədlərinin formalaşmasında, məktəbin strateji planının hazırlanması, məktəbin təhlükəsizlik mühitnin yaradılmasının iştirakçısına çevrilir.

## MƏKTƏB ÖZÜNÜİDARƏETMƏSİNİN STRUKTURU VƏ FƏALİYYƏTİ

Şagirdlər özünüidarəetməsi, seçkilər əsasında yaranır və sinif şagirdlərinin müstəqil seçimini ifadə edir.

Özünüidarəetmə üzvləri, öz tərkibindən, siyahı ilə nəzərdə tutulmuş əksəriyyətlə, müvafiq pillənin özünüidarəetmə sədrini seçirlər. Orta pillənin özünüidarəetmə üzvləri həmin il Qəyyumlar Şurasında nümayəndələrini seçirlər. Şagirdlər özünüidarəetməsinə özünüidarəetmə tərəfindən seçilən sədr rəhbərlik edir.

## MƏKTƏBDƏ ŞAGİRDLƏR ÖZÜNÜİDARƏETMƏSİNİN EFFEKTİV OLMASI ÜÇÜN O, STRUKTURLAŞDIRILMIŞ[6] OLMALI VƏ NÖVBƏTİ MƏQAMLARA SAHİB OLMALIDIR:

- MÜDDƏA[7], MİSİYA VƏ MƏQSƏDLƏR, FƏALİYYƏT PLANI;
- BÜDCƏNİN PLANLANMASI PROSESİNDƏ MƏKTƏBƏ TƏQDİM EDİLMƏLİ OLAN VƏ ƏVVƏLCƏDƏN YAZILMIŞ BÜDCƏ;
- MƏKTƏBİN BÜTÜN ŞAGİRDLƏRİNƏ MƏLUMATIN/ALINAN QƏRARLARIN ÇATDIRILMASI VƏ ƏKS-ƏLAQƏ ALINMASI BAXIMINDAN ƏVVƏLCƏDƏN TƏYİN OLUNMUŞ QAYDALAR/PROSEDURLAR;

---

[6] Qoqliçidze.A. Məktəb özünüidarəetməsində iştirak, Şagird kitabı səh.74
[7] Qoqliçidze.A. Məktəb özünüidarəetməsində iştirak, Şagird kitabı səh.75

## MƏKTƏB ÖZÜNÜİDARƏETMƏSİNİN STRUKTURU VƏ FƏALİYYƏTİ

- məktəbin strukturu və hər bir struktur bölmənin funksiya-vəzifələrini tanımalıdırlar;
- məktəbin tənzimləyici sənədlərinə münasibət bildirməlidirlər;
- əvvəlcədən müəyyən edilmiş dövriliklə, zəruri hallarda isə - həm də növbədənkənar şəkildə görüşməlidirlər;
- fəaliyyət planı ilə müəyyən edilmiş məsələləri və/və ya zəruri hallarda yeni müəyyən edilmiş məsələləri müzakirə etməlidir;
- məktəb məsələlərini müzakirə edərkən şagirdlərin adından çıxış etməlidirlər;
- şagirdlərin mövqeyini təqdim etməli, tədris prosesinin təkmilləşdirilməsi məsələlərini müzakirə etməlidirlər;
- şagirdlərin maraq və tələbatlarını öyrənməli və onların həyata keçirilməsi üçün şərait yaratmalıdırlar;
- məktəb problemlərinin müəyyən edilməsi və həlli prosesində iştirak etməlidirlər;
- məktəb rəhbərliyi ilə aktiv ünsiyyətdə olmalıdırlar.

## ŞAGİRDLƏR ÖZÜNÜİDARƏETMƏSİNİN YERLİ TƏCRÜBƏSİ

Artıq qeyd etdiyimiz kimi, hələ Uznadze[8] hesab edirdi ki, şagirdlər demokratik cəmiyyət vətəndaşlarından tələb olunan bacarıqları məktəbdə inkişaf etdirməlidirlər. Bu cür təcrübə əldə etməyin ən yaxşı yollarından biri məktəbdə mövcud fəal şagirdlər özünüidarəetməsidir. Hüquqi reqlamentə əsasən, şagirdlər özünüidarəetmələri Gürcüstanın bütün məktəblərində fəaliyyət göstərməlidir. Bəzi məktəblərdə onların fəaliyyəti maraqlı təcrübə yaradır.

[8] Demokratik şəkildə təşkil olunmuş dövlət yalnız fərdi deyil, ilk növbədə vətəndaş yetişdirməyə çalışır [...] Demokratiyanın, dövlət həyatının inkişaf prosesinə yaradıcı şəkildə müdaxilə etmək bacarığına malik olan şüurlu vətəndaşların yetişdirilməsində maraqlı olduğu danılmazdır", ümumtəhsil məktəbinin vəzifələri, 1917-ci il.

# NÜMUNƏ 1

## “ŞAGİRDLƏR ÖZÜNÜİDARƏETMƏSİ ZORAKILIĞA QARŞI”

**Problem:** Məktəb zorakılığının ən çox yayılmış forması olan psixoloji zorakılığın yayılması, şagirdlər arasında, eləcə də şagirdlər və müəllimlər arasında xoş olmayan və qeyri-əməkdaş bir mühit yaratdı, bu da öz növbəsində şagirdlərin akademik nailiyyətlərinə təsir etdi.

**Məqsəd:** Məktəb icması üzvlərinin diqqətini yeniyetmələrin inkişafı prosesində psixoloji zorakılığın əhəmiyyətinə yönəltməklə zorakılıq faktlarının azaldılmasına imkan yaratmaq.

**Fəaliyyətlər:** Özünüidarəetmə şagirdləri psixoloji zorakılıq halları ilə bağlı problemlərdən xəbərdar olduqdan sonra onların həlli yolları üzərində işləməyə başladılar. Bunun üçün özünüidarəetmə iclası çağırıldı və mövcud vəziyyət müzakirə edildi, bunun əsasında növbəti tədbirlər planlaşdırıldı və həyata keçirildi:

- Şagirdlər özünüidarəetməsi onlayn anketdən istifadə edərək anonim sorğu keçirdi. Sorğunun məqsədi məktəb icması üzvlərinin hansı hərəkəti zorakılıq kimi qəbul etdiyini öyrənmək idi. Onlayn anketdə növbəti qrafalar göstərilmişdi: “Sizin diskriminasiya yönümlü saydığınız hərəkət”, “Sizin aşağılayıcı və təhqiredici saydığınız sözlər/cümlələr”, “Ləqəblərə münasibətiniz necədir” və s.
- Alınan məlumatlar əsasında şagirdlər özünüidarəetməsi əl işləri və onlayn posterlər hazırladılar, onların üzərində şagirdlər üçün qəbuledilməz olan bütün sözlər, cümlələr və hərəkətlər qeyd edilmişdi. Əl işi plakatlar məktəb məkanında hər kəsin görə biləcəyi yerlərdə yerləşdirildi, onlayn versiya məktəbin Facebook səhifəsi vasitəsilə yayıldı.
- Özünüidarəetmə məktəb mühitində qısa hekayələr müsabiqəsi təşkil etdi. Maraqlanan şagirdlər tədqiqatın nəticələrindən əldə edilən məlumatlar əsasında hekayələr yazdılar. Onlar zorakılığa məruz qalan yeniyetmələrin yaşadıqları emosiyaları və münasibətləri əks etdirirdi.
- Ən yaxşı yazı işləri məktəb ictimaiyyətinin iştirakı ilə müəyyən edildi. Şagirdlər özünüidarəetməsi özəl sektorla əməkdaşlıq edərək hekayələr toplusunu nəşr etdirdi.

- Hekayələr toplusu əsasında zorakılığın qarşısının alınması, vətəndaş maarifləndirilməsi məqsədilə gürcü və xarici dil müəllimləri tərəfindən dərslər keçirildi.
- Toplunun bir hissəsi məktəbdə paylandı. Qalan nüsxələr məktəb kitabxanasında saxlanılır və vaxtaşırı tədris prosesi üçün mənbə kimi istifadə olunur.
- Layihə çərçivəsində hazırlanmış hekayələr toplusunun və afişaların elektron variantları elektron poçt vasitəsilə valideynlərə göndərildi.

## NƏTİCƏ:

Layihənin həyata keçirilməsi nəticəsində məktəb ictimaiyyətinin üzvləri zorakılıq və diskriminasiyanın yeniyetmələrin psixoloji vəziyyətinə təsirini düşünüb dərk etdilər ki, bu da öz növbəsində məktəbdə qeyd olunan faktları azaltdı.

## NÜMUNƏ 2

### “MƏKTƏBDAXİLİ NİZAM-İNTİZAM QAYDALARI VƏ ŞAGİRDLƏR ÖZÜNÜİDARƏETMƏSİ”

**Problem:** Şagirdlər arasında məktəbdaxili nizam-intizam qaydalarının məzmunu və əhəmiyyəti barədə məlumatın olmaması səbəbindən bir çox intizam pozuntuları müşahidə olunurdu. Eyni səbəbdən şagirdlərin həvəsləndirilməsi mexanizmlərindən çox vaxt səmərəli istifadə edilmirdi.

**Məqsəd:** Şagirdlər tərəfindən məktəbdaxili nizam-intizam qaydalarının əhəmiyyətini dərk etmək və qeyd olunan sənədin səmərəli işini təşviq etmək.

**Fəaliyyətlər:** Layihə çərçivəsində bir ay ərzində şagirdlər özünüidarəetməsinin təşkili və administrasiya ilə razılaşaraq aşağıdakı tədbirlər həyata keçirildi:

- Özünüidarəetmə məktəbdaxili nizam-intizam qaydaları ilə tanış oldu, administrasiya nümayəndələri şagirdlərə sənədin məzmununu işləyib-hazırlamağa kömək etdilər;
- Özünüidarəetmə nümayəndələri siniflərə uyğun olaraq məktəbdaxili nizam-intizam qaydaları haqqında məlumatlara nə dərəcədə malik olduqları barədə sorğu keçirdi, hesabat hazırladılar;

- Araşdırmalardan sonra özünüidarəetmə sədrləri vasitəsilə məktəbin daxili qaydaları haqqında məlumatlar hər bir şagirdə çatdırıldı. Siniflərdə sinif rəhbərlərinin iştirakı ilə qeyd olunan sənədin müzakirəsi təşkil olundu;

- Siniflər məktəb ictimaiyyətinin daxili nizam-intizam qaydalarında əks olunan müddəalara nə dərəcədə əməl etdiyini müşahidə etdikləri günləri böldülər (günlər siniflər üzrə elə bölündü ki, bir ay bu fəaliyyətlə tam əhatə olundu. Hər sinif müşahidəni bir neçə gün aparırdı);

- Toplanmış məlumatlar əsasında sinif özünüidarəetmə sədrləri hesabat hazırladılar. **Konkret faktları müşahidə edərkən heç bir şəxsin müəyyən edilmədiyi vacib məqamdır, müvafiq olaraq hesabatda şəxsi məlumatlar (adlar və soyadlar qeyd edilməmişdi) əks olunmamışdı;**

- Özünüidarəetmə, müşahidə hesabatı və özünüidarəetmə tərəfindən hazırlanmış tövsiyələri özündə əks etdirən təqdimat hazırladı və Qəyyumlar Şurasına təqdim etdi (Məktəbdaxili nizam-intizam qaydaları məktəb direktoru tərəfindən təklif olunur, Qəyyumlar Şurası tərəfindən təsdiq edilir).

## NƏTİCƏ:

Şagirdlər sənədin maddələrini hərtərəfli başa düşdülər; Tədris prosesində onun əhəmiyyətini və rolunu dərk etdilər. Nəticədə, sənəd qüvvəyə mindi ki, bu da intizam xətalarının azalmasına və həvəsləndirmə mexanizmlərinin səmərəli fəaliyyət göstərməsinə səbəb oldu.

## ŞAGİRDLƏR ÖZÜNÜİDARƏETMƏSİNİN BEYNƏLXALQ TƏCRÜBƏSİ

Şagirdlər özünüidarəetmələrinə dünyanın bir çox ölkəsində rast gəlmək olar. Onların təcrübəsi rəngarəngdir və böyük ölçüdə bu ölkələrdə demokratiyanın keyfiyyətindən, şagirdlərin özlərinin vətəndaş fəallığından, dövlətin münasibətindən və şagirdlərdə demokratik dəyərləri inkişaf etdirmək istəyindən asılıdır. Bəzi ölkələrdə şagirdlər özünüidarəetmələri məktəb bazası çərçivəsində fəaliyyət göstərir, bəzi ölkələrdə isə özünidarəetmələr məktəb divarlarından kənara çıxıb, birliklər yaradaraq milli səviyyədə fəaliyyət göstərir, məsələn:

- Estoniya Şagirdlər Şuraları İttifaqı (1998-ci ildə əsası qoyuldu) hazırda Estoniya üzrə 90.000 şagirdi birləşdirir. İttifaq Estoniyanın Təhsil və Araşdırma Nazirliyi,

- Sosial Müdafiə Nazirliyi və həm Estoniyada, həm də dünyada müxtəlif gənclər təşkilatları ilə əməkdaşlıq edir. Birlik hər il ən azı 3 irimiqyaslı tədbir, o cümlədən iki ümumi yığıncaq təşkil edir ki, birlik üzvləri regional siyasət məsələsində öz mövqelərini müəyyən etsinlər, sənədlər təsdiq etsinlər və şura seçsinlər. Həmçinin, Birlik müxtəlif layihələr həyata keçirir. Şagirdlər tərəfindən qaldırılan problemli və/və ya məqsədyönlü məsələlərin müzakirəsi üçün Şagirdlər Özünüidarəetmə Şurasında müxtəlif komitələr yaradılıb və müvafiq komitələrdə müvafiq məsələlər müzakirə olunur;

- Amerika Birləşmiş Ştatlarının şagirdlər hökumətlərinin əsas strukturu ABŞ hökumətinin modelinə əsasən qurulub. Bu struktura əsasən də şagird hökumətləri modelləşdirilir. O, üç qoldan ibarətdir: icraçı, qanunverici və məhkəmə. Bu qollar şagirdlər hökumətində güc balansını təmin etmək üçün birlikdə işləyirlər;

- Serbiyanın Vranye şəhərində İvan İvanoviç adına məktəbin şagirdləri üçün ən mühüm problem məktəblilərin təhlükəsizliyini təhdid edən sıx nəqliyyat hərəkəti idi. Onlar razılaşdılar ki, bu problemi həll etməyin ən yaxşı yolu məktəbin yaxınlığındakı yollarda işıqforların quraşdırılmasıdır. Dəstək əldə etmək və müvafiq yardım almaq məqsədilə potensial maliyyəçilər qismində yol polisi, Tikinti Sektoru Müdirliyi və Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı Beynəlxalq Təşkilatının nümayəndələri ilə görüşlər keçirdilər. Geniş ictimaiyyəti məlumatlandırmaq və problemi təqdim etmək üçün şagirdlər mediaya müraciət edərək, yol polisi və Tikinti Sektoru Müdirliyinin nümayəndələri ilə birlikdə yerli televiziya kanalı vasitəsilə ictimaiyyət qarşısında çıxış etdilər. Şagirdlərin səylərinin nəticəsi Vranye şəhərində bütün məktəb və uşaq bağçalarının yaxınlığında işıqforlar quraşdırıldı.[9]

[9]Bekmeni. E. Traford. B. Məktəblərin demokratik idarəolunması. Səh.81

MƏKTƏBİN DEMOKRATİK FUNKSİONALLIĞI ÜÇÜN ŞAGİRDLƏR ÖZÜNÜİDARƏETMƏSİ

# HİSSƏ 2

# ŞAGİRDLƏR ÖZÜNÜİDARƏETMƏSİ VƏ MƏKTƏB MÜDRİYYƏTİ

USAID AMERİKA XALQINDAN

PH international ADVANCING SOCIETIES, CONNECTING PEOPLE

TSİALA QAQNİDZE
LİANA KOBESAŞVİLİ

# MƏKTƏBİN DEMOKRATİK FUNKSİONALLIĞI ÜÇÜN ŞAGİRDLƏR ÖZÜNÜİDARƏETMƏSİ

## HİSSƏ II

## ŞAGİRDLƏR ÖZÜNÜİDARƏETMƏSİ VƏ MƏKTƏB MÜDRİYYƏTİ

USAID AMERİKA XALQINDAN
PH international ADVANCING SOCIETIES, CONNECTING PEOPLE

# MƏKTƏBİN DEMOKRATİK FUNKSİONALLIĞI ÜÇÜN ŞAGİRDLƏR ÖZÜNÜİDARƏETMƏSİ

ŞAGİRDLƏR ÖZÜNÜİDARƏETMƏSİ


**MÜƏLLİFLƏR:**

TSİALA QAQNİDZE
LİANA KOBESAŞVİLİ

**DİZAYNER:**

TAMAR NİKOLEİŞVİLİ

**REDAKTOR:**

NATİA NATSVLİŞVİLİ

**QRUPUN RƏHBƏRİ:**

MAKA BİBİLEİŞVİLİ



**2022-ci il**

Resurs, Amerika xalqının dəstəyi və ABŞ Beynəlxalq İnkişaf Agentliyinin səyləri əsasında hazırlanıb. Daxilində əks olunan məlumat və ifadə olunan fikirlər üzrə məsuliyyət yalnız müəlliflərə məxsusdur və o PH International, ABŞ Beynəlxalq İnkişaf Agentliyi və ya Amerika Birləşmiş Ştatlar Hökumətinin fikirlərini əks etdirmir.

# GİRİŞ

2022-2027-ci illərdə PH International təşkilatı tərəfindən Amerika Birləşmiş Ştatlarının Beynəlxalq İnkişaf Agentliyinin (USAID) maliyyələşdirməsi və Gürcüstanın Təhsil və Elm Nazirliyinin dəstəyi ilə Gürcüstanda USAID-in vətəndaş təhsili proqramı həyata keçirilir.

Proqramın məqsədi,  yüksək vətəndaş şüuruna malik, mülki proseslərdə iştirak edən  gənclərin yetişdirilməsidir. Proqram vətəndaş təhsilinin təlim-tədris prosesində texnologiyaların tətbiqini, məktəbdə demokratik mədəniyyətin tətbiqini təşviq etməyi, biznes və məktəblər arasında əlaqə yaratmağı  nəzərdə tutur.

Bələdçi,  proqram çərçivəsində hazırlanıb və şagirdlər özünüidarəetməsinin fəaliyyəti ilə bağlı tövsiyələri ehtiva edir. Resurs üç hissədən ibarətdir:

- Birinci hissədə şagirdlər özünüidarəetməsi  üzvləri üçün nəzərdə tutulmuş, özünüidarəetmənin rolu və fəaliyyəti haqqında məlumatla tanış olacaqsınız;

- İkinci hissə məktəb administrasiyası üzvlərinə, şagirdlər özünüidarəetməsinin fəaliyyətinə dəstək olmağa kömək edəcək;

- Üçüncü hissənin məqsədi, Təhsil Resurs Mərkəzləri nöqteyi-nəzərindən şagirdlər özünüidarəetməsini gücləndirməkdir.

Verilmiş resurs, şagirdlər özünüidarəetməsi üzvlərinə məktəb strukturundakı[1]  rolları və yerini  düzgün təyin etmə imkanı verəcək. Onlara məktəb həyatına daha fəal qoşulmağa, məktəb üçün mühüm qərarların verilməsi prosesində iştirak etməyə, məktəbin demokratik mədəniyyətinin inkişafına töhfə verməyə kömək edəcək.

[1] Qoqliçidze.A. Məktəb özünüidarəetməsində iştirak, Şagird Kitabı, 2011. səh 24

# MƏZMUN

## ŞAGİRDLƏR ÖZÜNÜİDARƏETMƏSİ VƏ MƏKTƏB MÜDRİYYƏTİ


Məktəb strukturunda şagirdlər özünüidarəetməsinin yeri və rolu ........ 1

Məktəbin müdriyyəti şagirdlər özünüidarəetməsinin fəaliyyət dəstəkçisi kimi ........ 2

Şagirdlər özünüidarəetməsinin digər məktəb vahidləri ilə əməkdaşlığı ........ 3

**Nümunə 1** Şagirdlər özünüidarəetməsinin fəallaşmasının təşviqi ........ 4

**Nümunə 2** Məktəb infrastrukturunun qayğısına qalmaq ........ 5

**Nümunə 3.** Məktəb televiziyası ........ 6

Vətəndaş təhsili klubu və şagirdlər özünüidarəetməsi tərəfindən planlaşdırılan və həyata keçirilən layihələr arasında hansı fərq var? ........ 7

## MƏKTƏB STRUKTURUNDA ŞAGİRDLƏR ÖZÜNÜİDARƏETMƏSİNİN YERİ VƏ ROLU

Şagirdlər özünüidarəetməsi şagirdlərin seçdiyi orqan kimi, Qəyyumlar Şurasındakı nümayəndəsi vasitəsilə məktəbin idarə olunmasında iştirak edir. Demokratik idarəetmənin bu imkanı, məktəb müdriyyəti ilə şagirdlər özünüidarəetməsinin fəal əməkdaşlığını tələb edir. Qəyyumlar Şurasının qərarlarını həyata keçirən, məktəbə rəhbərlik edən, məktəbin idarə olunması ilə bağlı prosedurları həyata keçirən məktəb müdriyyəti, məktəbin yüksək iş standartını qurur və şagirdlər özünüidarəetməsinin uğurlu fəaliyyətində həlledici rol oynayır.

Bütün uğurlu direktorlar bilirlər ki, güclü, effektiv məktəb özünüidarəetməsi məktəbi bir institut kimi gücləndirmək üçün vacibdir. Bu isə aşağıdakı hallarda mümkündür:

- məktəbin idarəetmə sistemi demokratik olduqda;
- məktəbin prosesləri şəffaf olduqda, funksiyalar məktəbin rəhbər orqanları arasında bölüşdürdükdə və ünsiyyət rəvan olduqda;
- şagirdlər onları maraqlandıran, məktəbə və məktəbin mənafeyinə aid olan qərarların qəbulu prosesində iştirak edə bilsinlər deyə məktəbdə bütün şəraitlər yaradıldıqda.
- Şagirdlər özünüidarəetməsi ilə məktəb rəhbərliyi arasında əməkdaşlıq nələri əhatə etməlidir? İlk növbədə şagirdlər özünüidarəetməsi və məktəb rəhbərliyi birgə səylərlə məktəbdə demokratik mədəniyyətin bərqərar olmasına öz töhfəsini verməlidir. Məktəbdə demokratik mədəniyyətin bərqərar olması üçün aşağıdakılar lazımdır:
- məktəb ictimaiyyətinin hüquqlarının qorunacağı, şagirdlərin vətəndaş fəallığının təmin ediləcəyi şərait yaratmaq;
- məktəbin rəhbər orqanının rolu, funksiyası və məqsədi haqqında məktəb ictimaiyyəti ilə məlumatlandırma kampaniyası aparmaq;
- müxtəlif fikirlərin qəbulu üçün əlverişli mühit yaratmaq;
- məktəb icmasının hər bir üzvünün şəxsi, sosial və peşəkar həyata keçirilməsini asanlaşdırmaq;
- Bütün məktəbdaxili proseslər dialoqa və qarşılıqlı hörmətə əsaslanmalıdır;

- şagirdlərin qərar qəbul etmə və məktəbdə özünüqiymətləndirmə prosesinə cəlb edilməsini təşviq etmək[2];
- şagirdlərə öz səlahiyyətləri daxilində müəyyən edilmiş problemin həllində iştirak etmək imkanı vermək;
- məktəb özünüidarəetməsi orqanlarının formalaşması prosesində demokratik seçki prinsiplərinin bərqərar olmasına imkan yaratmaq;
- məktəbin təşkilati muxtariyyət hüququndan maksimum istifadə etmək;
- söz azadlığını həyata keçirmək üçün imkanlar /fikirini ifadə etmək vasitələri yaratmaq[2];
- şagirdləri dinləməyə hazır olan "açıq məktəb" yaratmaq, şagirdləri təşəbbüslərə təşviq etmək və bu təşəbbüsləri həyata keçirmək üçün onlara təhlükəsiz məkan yaratmaq.

Belə ki, şagirdlər özünüidarəetməsi və məktəb direktoru qarşılıqlı əməkdaşlıq yolu ilə şagirdlərin fəallaşmasına yardım etməli, onlara qarşı yüksək gözləntilər qoymalı, məktəbin strateji məqsəd və vəzifələrini birgə işləyib hazırlamalı, məktəbdə mövcud prosesləri dəyərləndirməli, prioritetləri müəyyənləşdirməli və mövcud standartlara nail olunmasını təmin etməlidir. Onlar məktəbi ümumi baxış və istiqamətlərlə idarə etməlidirlər.

Şagirdlər özünüidarəetməsi məktəbin inkişaf planının yaradılması, həyata keçirilməsi və monitorinqi prosesinə cəlb edilməlidir.

## MƏKTƏB MÜDRİYYƏTİ ŞAGİRDLƏR ÖZÜNÜİDARƏETMƏSİ FƏALİYYƏTİNİN DƏSTƏKÇİSİ KİMİ

Şagird demokratiyanı öyrənməli və praktiki olaraq məktəb həyatında təcrübə etməlidir. "Demokratik məktəb", məktəb idarəçiliyinin insan hüquqları dəyərlərinə əsaslandığını, şagirdlərin, məktəb işçilərinin və bütün maraqlı tərəflərin lazımi resurslarla təchiz edilməsini və onların məktəb daxilində qərarların qəbulu proseslərində iştirakının təmin edilməsini nəzərdə tutur. Müdriyyətin fəal dəstəyi məktəbdə şagirdlər özünüidarəetməsinin səmərəli işinə töhfə verir ki, bu da öz növbəsində məktəbin demokratik mədəniyyətinin ifadəsidir.

[2] (məktəbin veb-saytı, sosial şəbəkələr, məktəb media resursları və s. vasitəsilə);

Şagirdlər özünüidarəetməsinin səmərəli fəaliyyət göstərdiyi məktəbdə hansı proseslər gedir?

- Şagirdlərin maraqlarını narahat edən məsələlərin müzakirəsi məqsədilə şagirdlər özünüidarəetməsi ilə müdriyyət arasında mütəmadi görüşlər keçirilir;
- Məktəbdə əməkdaşlıq mühiti yaradılıb və qrup məsuliyyəti hissinin inkişafı təşviq edilir, təşəbbüslər həvəsləndirilir;
- Müdriyyət şagirdlərə olan etimadını hərəkətləri ilə ifadə edir;
- Şagirdlər arasında situasiya liderlərinin yaranmasına və onların bacarıqlarının inkişafına şərait yaradılır;
- Şagirdlər öz səlahiyyətləri daxilində məktəbin idarə edilməsi proseslərində iştirak edirlər. Məktəbdə demokratik idarəetmə təşviq olunur;
- Şagirdlər onları maraqlandıran məsələlər üzrə tədqiqatlar planlaşdırır və aparır, problemləri müəyyənləşdirir və onların həlli yollarını tapırlar;
- Məktəbin büdcəsi tərtib edilərkən şagirdlər özünüidarəetməsi tərəfindən planlaşdırılan büdcə nəzərə alınır;
- Şagirdlərlə birlikdə məktəb rəhbərliyi səviyyəsində istifadə olunan bütün ictimai sənədlər nəzərdən keçirilir, şagirdlərin konstruktiv rəyləri nəzərə alınır;
- Şagirdlər məktəbin özünüqiymətləndirmə işçi qrupunda iştirak edirlər;
- Məktəb müdriyyətinin təşəbbüsü və dəstəyi ilə şagirdlərin layihə yazmaq və idarə etməyi öyrənmək imkanı var[3].

## ŞAGİRDLƏR ÖZÜNÜİDARƏETMƏSİNİN DİGƏR MƏKTƏB VAHİDLƏRİ İLƏ ƏMƏKDAŞLIĞI

Məktəbdə özünəməxsus demokratik idarəçilikdən danışanda bu o deməkdir ki, məktəbdə bir növ daxili muxtariyyətə malik olan struktur vahidlər var. Onların əsaslandırdıqları və nəzərdən keçirilməsi üçün təklif etdikləri cari proseslərə fərqli/alternativ baxışları ola bilər. Onlar maraqlarını ifadə edə və müdafiə edə bilərlər. Bizim halda isə şagirdlər özünüidarəetməsi öz funksiyalarınaəsasən məktəb direktoru, fənn

[3]https://civics.ge/uploads/wign/Handbook-final-web.pdf

şöbələri, pedaqoji şura, disiplin komitəsi ilə əməkdaşlıq edir və məktəbin Qəyyumlar Şurası ilə birlikdə məktəbin idarə olunmasında iştirak edir. Məktəbin idarə olunmasında şagirdlər özünüidarəetməsinin iştirakı qərarların qəbulu prosesində fəal iştirakda, özünün (ümumi məktəb şagirdləri nəzərdə tutulur) arqumentativ mövqeyini ifadə etmək və müdafiə etməkdə, hətta ümumi fikirdən fərqli mövqenin əks olunmasında ifadə olunur. Şagirdlər özünüidarəetməsinin məktəbin müdriyyəti ilə əməkdaşlığı şagirdlərin məktəb problemlərini müəyyən etmək və onların həlli yollarını axtarmaq, problemlərin həllində fəal iştirak etmək, müdriyyətlə birlikdə məktəb ehtiyaclarını araşdırmaq və tədris prosesini, məktəb tədris planını, məktəb mühitinin təhlükəsizliyini qiymətləndirmək, tövsiyələr hazırlamaq və təqdim etməkdə əks olunur.

Şagirdlər özünüidarəetməsi, təbii ki, bir tərəfdən digər məktəb özünüidarəetmləri ilə yaxşı praktiki təcrübəsini bölüşə, digər tərəfdən isə digər özünüidarəetmələrin gördüyü işlər haqqında məlumatları dinləyə, onu emal edə və lazım gələrsə, öz problemlərini həll edərkən nəzərə ala bilər.

Aşağıda məktəb administrasiyasının şagirdlər özünüidarəetməsinin fəaliyyətinə dəstəyinin praktiki nümunələri verilib.

# NÜMUNƏ 1

## ŞAGİRDLƏR ÖZÜNÜİDARƏETMƏSİNİN FƏALLAŞMASINI TƏŞVİQ ETMƏK

**Problem:** Şagirdləri təşəbbüslər və fəaliyyətlərlə bağlı seçilməyən məktəb, şagirdlərin məktəb/icma fəaliyyətlərinə cəlb olunmasını təşviq etmək üçün mexanizmlər yaratmağa qərar verdi.

**Məqsəd:** Şagirdlərin layihələrinin və təşəbbüslərinin həyata keçirilməsini dəstəkləmək üçün şagird portfolioları yaratmaq.

**Fəaliyyətlər:**

- Məktəb administrasiyası Qəyyumlar Şurası ilə razılaşaraq şagirdlər özünüidarəetməsinin layihələri üçün büdcə ayırdı;
- Müsabiqə vasitəsilə məktəb qeyd olunan layihələrin planlaşdırılmasında və həyata keçirilməsində şagirdlərə köməklik göstərəcək bir şəxsi işə götürdü;

- Məktəbdə vaxtaşırı özünüidarəetmə təşəbbüslərinin və layihələrinin maliyyələşdirilməsi üçün qrant müsabiqələri elan edilirdi. Lakin şagirdlər müsabiqə olmadan da oxşar layihələr planlaşdıra və onların həyata keçirilməsi ilə bağlı icazə almaq üçün administrasiyaya müraciət edə bilərdilər;

- Bir sxem hazırlandı. Sxemə uyğun olaraq özünüidarəetmə tərəfindən hazırlanan və məktəb tərəfindən seçilən layihələrə pul ayrılırdı, satınalmalar aparılırdı və hesabatlar tərtib edilirdi;

- Administrasiyaya maliyyə vəsaitinin əldə edilməsi və ya həyata keçirilməsi üçün icazənin alınması məqsədilə idarəyə daxil edilmiş bütün həmin layihə ərizələri qeydiyyata alınır və məktəbin elektron sisteminə daxil edilirdi. Ərizədə layihə və ya təşəbbüsdə iştirak edən bütün şagirdlərin adları və soyadları qeyd olunurdu.

  Oxşar prosedurlar şagirdlərin portfoliolarının yaradılmasına və lazım gəldikdə onlardan şagirdlərin maraqlarına uyğun istifadə edilməsinə kömək edir.

## NƏTİCƏ:

Məktəbə yardımçı şəxsin gətirilməsi, layihələrin həyata keçirilməsinin təşviqi, büdcənin ayrılması və onların fəaliyyətini təsdiq edən sənədlərin şagirdlərin portfoliolarında əks etdirilməsi özünüidarəetmənin və məktəbdə klubların fəaliyyətinin səmərəli idarə olunmasına töhfə verdi.

## NÜMUNƏ 2

### MƏKTƏB İNFRASTRUKTURUNUN QAYĞISINA QALMAQ

**Problem:** Administrasiyanın sinif otaqlarının və digər məktəb yerlərinin səliqəli saxlanılması səylərinə baxmayaraq, bu məsələ çox vaxt həllini tapmır. Təəssüf ki, bəzi şagirdlər öz məsuliyyətlərini dərk etmir və inventarları korlayırlar.

**Məqsəd:** Həvəsləndirmə mexanizmini tətbiq etməklə məktəb mühitinə qayğı və məsuliyyətin inkişafına imkan yaratmaq.

**Fəaliyyətlər:**

- Məktəb administrasiyası şagirdlər özünüidarəetməsi ilə əməkdaşlıq edərək siniflər arasında yarış təşkil etdi. Yarışların mahiyyəti belə idi: sinif üçün ayrılmış

otaq semestr boyu səliqəli olmalı idi. Hər bir sinif otağın səliqəyə salınmasında öz töhfəsini verə bilərdi. Yarış çərçivəsində şagirdlər dövlət və özəl sektorun nümayəndələri ilə əməkdaşlıq etmək imkanı əldə edirdilər.

- Şagirdlər özünüidarəetməsi siniflərin dövri monitorinqini həyata keçirən qruplar cəlb etdi ki, onların üzvləri şagirdlərlə yanaşı, müəllimlər də idilər.

- Semestrin sonunda qalib sinif seçildi və məktəb administrasiyası özəl sektorla əməkdaşlıq edərək onların ekskursiyanı maliyyələşdirdi.

## NƏTİCƏ:

Şagirdlərdə məktəb mühitinə qarşı məsuliyyət və qayğı inkişaf etdi. Məktəb infrastrukturu yaxşılaşdı, təmir işlərinə çəkilən xərclər azaldı.

## NÜMUNƏ 3

### "MƏKTƏB TELEVİZİYASI"

**Problem:** Məktəb həyatı və orada baş verən mühüm məsələlər haqqında məlumat məktəb ictimaiyyəti üçün az əlçatan idi. Problem xüsusilə pandemiya dövründə aktuallaşdı.

**Məqsəd:** İctimai məlumatlılığı və məktəb demokratiyasının inkişafının təşviqi.

**Fəaliyyətlər:** Məktəb administrasiyasının təşəbbüsü ilə şagirdlər özünüidarəetməsi ilə əməkdaşlıqla, hər həftə xüsusi Facebook səhifəsində fəaliyyət göstərən məktəb televiziyası yaradıldı.

- Şagirdlər özünüidarəetməsi televiziya rubrikaları istiqamətində müsabiqə elan etdi;

- Verilişlərin və video süjetlərin montajı ilə məşğul olan texniki qrup yaradıldı. Şagirdlər arasından öz proqramlarını və baxışlarını təqdim edən rubrika aparıcıları seçildi;

- Məktəb administrasiyası lazımi avadanlıqların alınmasını öz üzərinə götürdü. Şagirdlər televiziyasının təhlükəsiz və keyfiyyətli işləməsini dəstəkləmək və onlara rəhbərlik etmələri üçün kadrlar ayırdı;

- Rubrikaların istiqamətləri mühümdür - onlar məktəb müəllimlərini qeyri-rəsmi nöqteyi-nəzərdən tanımaq, onların maraqlarını, keyfiyyətlərini və baxışlarını təqdim etmək; Uğurlu məzunların hekayələri və şagirdlər üçün məsləhətlərdən; məktəbin yenilikləri və cari imkanlardan; mövcud problemlər, onların həlli yollarının müzakirəsi və s. kimi məsələlərdən ibarətdir.

## NƏTİCƏ:

Məktəb ictimaiyyətinin məlumatlılığının keyfiyyəti yüksəldi; Şagirdlər müəllimləri fərqli gözlə görürdülər ki, bu da onların münasibətlərinə müsbət təsir etdi; Məktəbə qarşı maraq artdı və digər məktəblərin şagirdləri də məktəb televiziyasının yaradılmasına qayğı göstərməyə başladılar. Digər tərəfdən, televiziya administrasiyanın şagirdlərin maraq və məktəbə münasibətini daha yaxşı görməsinə şərait yaradır ki, bu da inkişaf imkanlarını artırır.

## VƏTƏNDAŞ TƏHSİLİ KLUBU İLƏ ŞAGİRDLƏR ÖZÜNÜİDARƏETMƏSİ TƏRƏFİNDƏN PLANLAŞDIRILAN VƏ HƏYATA KEÇİRİLƏN LAYİHƏLƏR ARASINDA HANSI FƏRQ VAR?

Məktəbdə şagirdlər özünüidarəetməsi və klubların fəaliyyəti ölkə daxilində dövlət və qeyri-hökumət təşkilatlarının fəaliyyətinə çox bənzəyir.

Məktəbin struktur bölməsi kimi, şagirdlər özünüidarəetməsinin funksiyası qanunla tənzimlənir. Onun həyata keçirdiyi layihələr tamamilə məktəblə bağlıdır. Özünüidarəetmə təşəbbüsləri və layihələri məktəbin ehtiyaclarından irəli gəlir və bilavasitə qanunla verilən hüquq və vəzifələrin qorunmasına və onun daxilindəki problemlərin həllinə yöntəlib (şagirdlər özünüidarəetmələrinin yerli təcrübə nümunələrinə baxın).

Klub layihələri klub üzvləri tərəfindən şagirdlərin və cəmiyyətin maraqlarına əsaslanaraq planlaşdırılır və şagirdlərin gözü ilə görünən problemlərin həllinə xidmət edir, məsələn, aşağıdakı mövzularda məlumatlılığın aşağı səviyyədə olması: ətraf mühitin mühafizəsi, sağlam həyat tərzi, rəngarəngliyin qəbulu, diskriminasiya; Klub üzvləri təmizlik, yaşıllaşdırma aksiyaları və s. təşkil edirlər.

Şagirdlər özünüidarəetməsi və mülki təhsil dərnəklərinin həyata keçirdiyi layihələrin bir-birindən kəskin şəkildə ayrıldığını, aralarında əməkdaşlığının mümkün olmaması kimi başa düşmək olmaz. Əksinə, məktəbin bu iki halqası birlikdə məktəb demokratiyası və ümumiyyətlə, məktəbin inkişafı

proseslərində mühüm rol oynayır. Məsələn, məktəb infrastrukturu ilə bağlı məsələlərin təbliği (yalnız bu deyil), məktəbin yaxınlığında piyada keçidlərinin quraşdırılması və s.

İstər klub, istərsə də özünüidarəetmə nümayəndələri layihənin icrası prosesində ehtiyac olduğu halda, yerli və özəl sektor nümayəndələri ilə əməkdaşlıq edirlər.

MƏKTƏBİN DEMOKRATİK FUNKSİONALLIĞI
ÜÇÜN ŞAGİRDLƏR ÖZÜNÜİDARƏETMƏSİ

# HİSSƏ 3

# TƏHSİL RESURS MƏRKƏZİ VƏ ŞAGİRDLƏR ÖZÜNÜİDARƏETMƏSİ

USAID
AMERİKA XALQINDAN
PH international
ADVANCING SOCIETIES, CONNECTING PEOPLE

TSİALA QAQNİDZE
LİANA KOBESAŞVİLİ

# MƏKTƏBİN DEMOKRATİK FUNKSİONALLIĞI ÜÇÜN ŞAGİRDLƏR ÖZÜNÜİDARƏETMƏSİ

## HİSSƏ III

## TƏHSİL RESURS MƏRKƏZİ VƏ ŞAGİRDLƏR ÖZÜNÜİDARƏETMƏSİ

USAID AMERİKA XALQINDAN
PH international ADVANCING SOCIETIES, CONNECTING PEOPLE

# MƏKTƏBİN DEMOKRATİK FUNKSİONALLIĞI ÜÇÜN ŞAGİRDLƏR ÖZÜNÜİDARƏETMƏSİ

ŞAGİRDLƏR ÖZÜNÜİDARƏETMƏSİ


**MÜƏLLİFLƏR:**

TSİALA QAQNİDZE
LİANA KOBESAŞVİLİ

**DİZAYNER:**

TAMAR NİKOLEİŞVİLİ

**REDAKTOR:**

NATİA NATSVLİŞVİLİ

**QRUPUN RƏHBƏRİ:**

MAKA BİBİLEİŞVİLİ



**2022-ci il**

Resurs, Amerika xalqının dəstəyi və ABŞ Beynəlxalq İnkişaf Agentliy-inin səyləri əsasında hazırlanıb. Daxilində əks olunan məlumat və ifadə olunan fikirlər üzrə məsuliyyət yalnız müəlliflərə məxsusdur və o PH International, ABŞ Beynəlxalq İnkişaf Agentliyi və ya Amerika Birləşmiş Ştatlar Hökumətinin fikirlərini əks etdirmir.

# GİRİŞ

2022-2027-ci illərdə PH International təşkilatı tərəfindən Amerika Birləşmiş Ştatlarının Beynəlxalq İnkişaf Agentliyinin (USAID) maliyyələşdirməsi və Gürcüstanın Təhsil və Elm Nazirliyinin dəstəyi ilə Gürcüstanda USAID-in vətəndaş təhsili proqramı həyata keçirilir.

Proqramın məqsədi, yüksək vətəndaş şüuruna malik, mülki proseslərdə iştirak edən gənclərin yetişdirilməsidir. Proqram vətəndaş təhsilinin təlim-tədris prosesində texnologiyaların tətbiqini, məktəbdə demokratik mədəniyyətin tətbiqini təşviq etməyi, biznes və məktəblər arasında əlaqə yaratmağı nəzərdə tutur.

Bələdçi, proqram çərçivəsində hazırlanıb və şagirdlər özünüidarəetməsinin fəaliyyəti ilə bağlı tövsiyələri ehtiva edir. Resurs üç hissədən ibarətdir:

- Birinci hissədə şagirdlər özünüidarəetməsi üzvləri üçün nəzərdə tutulmuş, özünüidarəetmənin rolu və fəaliyyəti haqqında məlumatla tanış olacaqsınız;
- İkinci hissə məktəb administrasiyası üzvlərinə, şagirdlər özünüidarəetməsinin fəaliyyətinə dəstək olmağa kömək edəcək;
- Üçüncü hissənin məqsədi, Təhsil Resurs Mərkəzləri nöqteyi-nəzərindən şagirdlər özünüidarəetməsini gücləndirməkdir.

Verilmiş resurs, şagirdlər özünüidarəetməsi üzvlərinə məktəb strukturundakı[1] rolları və yerini düzgün təyin etmə imkanı verəcək. Onlara məktəb həyatına daha fəal qoşulmağa, məktəb üçün mühüm qərarların verilməsi prosesində iştirak etməyə, məktəbin demokratik mədəniyyətinin inkişafına töhfə verməyə kömək edəcək.

[1] Qoqliçidze.A. Məktəb özünüidarəetməsində iştirak, Şagird Kitabı, 2011. səh 24

# MƏZMUN

## TƏHSİL RESURS MƏRKƏZİ VƏ ŞAGİRDLƏR ÖZÜNÜİDARƏETMƏSİ


Təhsil Resurs Mərkəzi və şagirdlər özünüidarəetməsi ........................................... 1

Nümunə 1. “Şagirdlər özünüidarəetmələri zorakılığa qarşı” ................................ 3

Nümunə 2. “Resurs Mərkəzi - Şagirdlər özünüidarəetməsi təşəbbüslərinin dəstəkçisi” ........................................................................ 5

# TƏHSİL RESURS MƏRKƏZİ VƏ ŞAGİRDLƏR ÖZÜNÜİDARƏETMƏSİ

Bələdçinin bu hissəsində şagirdlər özünüidarəetməsinin səmərəli fəaliyyətində Təhsil Resurs Mərkəzinin rolunu müzakirə edirik. Bələdiyyə, regional və ya milli səviyyədə müxtəlif qurumlarla birgə əməkdaşlıq, resursların cəlb edilməsi, layihələrin həyata keçirilməsi məqsədilə şagirdlər özünüidarəetməsi ilə Resurs Mərkəzi arasında əməkdaşlığı nəzərdən keçirəcəyik. Bu istiqamətdə uğurlu praktiki nümunələr təqdim edirik.

Bələdçinin məqsədi, şagirdlərdə məktəb özünüidarəetməsində iştirak etməklə demokratik dəyərləri formalaşdırmaq, fəal vətəndaş bacarıqlarını inkişaf etdirməkdir. Bu məqsədə çatmaq üçün şagirdlər özünüidarəetmələrinin bir-biri ilə əməkdaşlıq edərək, məktəbdən kənara çıxa biləcək hüquq, öhdəlik və vəzifələri dərk etmələri vacibdir. Şagirdlər özünüidarəetməsinin bələdiyyə səviyyəsində qərarların qəbulu prosesində iştirak etmək imkanının olması vacibdir ki, gələcəkdə müxtəlif struktur bölmələri ilə əməkdaşlıq edərək, ictimai həyatda fəal iştirak edərək, düşünülmüş iştirakla, problem ətrafında komanda formalaşdırmaqla ölkənin idarə olunmasında və mühüm qərarların qəbulunda iştirak etmək mümkün olsun.

Bələdçidə təqdim olunan material şagirdlər özünüidarətmələrinə bir-biri ilə və Təhsil Resurs Mərkəzi ilə əməkdaşlığın vacibliyini daha yaxşı anlamağa, şagirdlər özünüidarətməsi fəaliyyətinin mümkün rəngarəngliyini anlamağa kömək edəcək. Təqdim olunan material Gürcüstan məktəblərində şagirdlər özünüidarəetməsinin praktiki nümunələrinə əsaslanır.

Gürcüstan Təhsil və Elm Nazirliyinin ərazi orqanlarının - Təhsil Resurs Mərkəzlənin müddəasında, Resurs Mərkəzinin məqsədi Təhsil və Elm Nazirliyinin siyasətini həyata keçirməkdir. Eyni müddəanın əsas funksiyalarında, digər funksiyalar arasında, Resurs Mərkəzini görürük:

- Məktəbdə tədris prosesinin Milli Tədris Planına uyğun şəkildə aparılmasının dəstəkçisi kimi (bu istiqamətdə şagirdlər özünüidarəetməsi Resurs Mərkəzlərinə yerlərdə baş verən proseslərin qiymətləndiricisi kimi, ehtiyacları daha aydın müəyyənləşdirməkdə kömək edə bilər və problemlərin həlli yollarını şagirdlər özünüidarəetməsi ilə birlikdə tapa bilər);

- İmkan yaradan kimi:

- Təhsil və digər proqram və layihələrin həyata keçirilməsində təlim mühitinin təmin edilməsi istiqamətində;

- Fəaliyyət göstərdiyi ərazilərdəki dövlət məktəbləri tərəfindən şagirdlərin peşəyönümü və karyera planlaşdırılması sisteminin tətbiqi və gücləndirilməsi istiqamətində;

- Ümumtəhsil müəssisələri arasında həm fənn, həm də məktəb idarəçiliyi sahəsində əməkdaşlıq baxımından.

Resurs Mərkəzi, şagirdlər özünüidarəetmələri arasında əməkdaşlığı dəstəkləyən struktur bölmə kimi mümkündür ki:

- yerli (bələdiyyə) səviyyədə Şagirdlər Özünüidarəetmələri Birliyinin (ən azı, əməkdaşlıq) yaradılmasına kömək etsin;
- Özünüidarəetmələr Birliyini dinləsin;
- sistemdəki cari islahatlar və dəyişikliklər haqqında məlumat versin;
- şagirdlərin təkliflərini müvafiq strukturlara təqdim etsin;
- müxtəlif strukturlarla ünsiyyətdə Şagirdlər Özünüidarəetmələri Birliyinə kömək etsin;
- bələdiyyə səviyyəsində şagirdlər özünüidarəetmələrinin bir-biri ilə əlaqə saxlamasına kömək etsin;
- bələdiyyə səviyyəsində Şagirdlər Özünüidarəetmələr Birliyi bələdiyyənin şagirdlərinin maraqlarını təmsil və müdafiə etsin;
- şagirdlər özünüidarəetmələrini dövlət qurumları ilə əməkdaşlığa təşviq etsin;
- şagirdlər özünüidarəetmələrinin bacarıqlarının növbəti məqamlarla gücləndirilməsinə kömək etsin:
    - ✓ təcrübələri bölüşməklə
    - ✓ ümumi maraq sahəsini vurğulamaqla
    - ✓ lazım gələrsə, cari proseslərdə fəal iştirak etməklə şagirdlərin və şagirdlər özünüidarəetmələrinin maraqlarını qorumaqla

- bələdiyyələr səviyyəsində təhsilin keyfiyyətinin yüksəldilməsi ilə bağlı təkliflər irəli sürsün/müzakirəyə versin və onların icrasına nəzarət etsin;

- şagirdlərin təlim mühitinin yaxşılaşdırılması və təhsilə həvəsinin artırılmasının qayğısına qalsın, onları təhsil sistemində aparılan islahatlar/yeniliklər barədə sistemli şəkildə məlumatlandırsın;

- şagirdlərin asudə vaxtlarının düzgün təşkilinin qayğısına qalsın. (müxtəlif maraqlı tədbirləri planlaşdırıb təşkil etməklə). Bələdiyyə ilə şagirdlərin yaxınlaşmasına imkan yaratsın;

- bələdiyyə səviyyəsində qərarların qəbulu prosesinə şagirdlərin cəlb edilməsini təşviq etsin, şagirdlərdə vətəndaş şüurunu artırsın.

Bunun üçün Resurs Mərkəzi şagirdlər özünüidarəetmələri ilə birlikdə növbəti fəaliyyətləri həyata keçirə bilər:

- Ən yaxşı təcrübələri/praktikaları bölüşmək üçün Şagirdlər Özünüidarəetmələr Birliyi konfransları keçirmək;

- Məlumatı vaxtında yaymaq üçün veb səhifə və/və ya sosial şəbəkə yaratmaq;

- Şagirdlərin problemlərini müəyyən etmək və onların həllində onlara köməklik göstərmək;

- Təhsil siyasətinin formalaşdırılmasında iştirak etmək - siyasətin təkmilləşdirilməsi üçün təklif və fikirlər təqdim etmək.

# NÜMUNƏ 1

## "ŞAGİRDLƏR ÖZÜNÜİDARƏETMƏLƏRİ ZORAKILIĞA QARŞI"

**Problem:** Şagirdlər özünüidarəetmələri insan hüquqlarını qorumaq və həmyaşıdlarını zorakılığa qarşı maarifləndirmək məqsədilə öz məktəblərində vaxtaşırı layihələr həyata keçirirlər, lakin məktəblərdə zorakılıq, xüsusilə də kiber bullinq halları tez-tez baş verirdi.

**Məqsəd:** Yeniyetmələrin inkişafı prosesində məktəb icması üzvlərinin diqqətini kiber zorakılığa cəlb etməklə diskriminasiya hallarının azaldılmasına imkan yaratmaq.

**Fəaliyyətlər:**

- Təhsil Resurs Mərkəzi məktəblərdə mövcud vəziyyətlə bağlı ən məlumatlı struktur kimi şagirdlər özünüidarəetməsinin ilk ümumi yığıncağının keçirilməsinə şərait yaratdı; Görüşdə Mandatur Xidmətin psixoloqu iştirak edirdi, o bütün proses boyu şagirdlər özünüidarəetməsi tərəfindən planlaşdırılan tədbirlərə cəlb olunacaqdı;
- Şagirdlər özünüidarəetməsi nümayəndələri Mandatur Xidmətinin psixoloqunu cəlb etməklə, onlayn sorğudan istifadə edərək anonim sorğu keçirdi, sorğunun məqsədi kiber bullinqlə bağlı mövcud vəziyyəti öyrənmək idi. Məqsəd, şagirdlərin necə kiber zorakılığın qurbanı olduqlarını müəyyən etmək idi;
- Araşdırmanın nəticələrinə əsasən, Şagirdlər Özünüidarəetmələr Birliyi Facebook səhifəsi yaratdı. Səhifədə kiber bullinqə qarşı müxtəlif tədbirlər planlaşdırmağa başladılar;
- Şagirdlər Özünüidarəetmələr Birliyi Mandatur Xidmətinin psixoloqunu cəlb etməklə onlayn veriliş hazırladı ki, onun da məqsədi kiber bullinq haqqında ictimaiyyəti məlumatlandırmaq idi;
- Resurs Mərkəzi poster müsabiqəsi təşkil etdi. Posterlərdə şagirdlərin kiber zorakılıq zamanı yaşadıqları ekran arxasındakı emosiyalar təqdim edilmişdi;
- Şagirdlər özünüidarəetməsi Resurs Mərkəzinin dəstəyi ilə özəl sektorla əməkdaşlıqla "Kiber zorakılıq cinayətdir" adlı banner hazırladı, banner daha sonra bələdiyyənin mərkəzində nümayiş etdirildi;
- Resurs Mərkəzinin dəstəyi ilə bələdiyyə səviyyəsində konfrans keçirildi, konfransda məktəb administrasiyaları və müəllimlər, dəvət olunmuş mütəxəssislər, valideynlər və şagirdlər iştirak edirdi;
- Konfransda şagirdlərin təqdim etdiyi plakatlar sərgiləndi.

# NƏTİCƏ:

Layihənin həyata keçirilməsi nəticəsində şagirdlər, müəllimlər, valideynlər, məktəb administrasiyası, məktəb cəmiyyətinin üzvləri bir daha düşünüb dərk etdilər ki, əsasən də prosesin daha az aydın görsəndiyi onlayn məkanda zorakılıq, yeniyetmənin psixoloji vəziyyətinə hansı təsiri göstərir və hansı nəticələrlə sonlanır.

# NÜMUNƏ 2

## “RESURS MƏRKƏZİ – ŞAGİRDLƏR ÖZÜNÜİDARƏETMƏSİ TƏŞƏBBÜSLƏRİNİN DƏSTƏKÇİSİ”

**Problem:** Məktəbdə təhsil islahatı çərçivəsində keçirilən ehtiyac araşdırması göstərdi ki, şagirdlər üçün məktəbdən kənar fəaliyyətlər mühüm əhəmiyyət kəsb edirdi. Həmin fəaliyyətlərin təmin edilməsini məktəb məhdud miqyasda həyata keçirə bilir, daha miqyaslı fəaliyyətlərə imkan yaratmaq onlar üçün çağırışdır.

**Məqsəd:** Şagirdlər özünüidarəetmələri arasında əməkdaşlığın gücləndirilməsi və birgə maliyyə axtarışı.

**Fəaliyyətlər:** Təhsil Resurs Mərkəzi məktəblərin ehtiyacları ilə tanış olduqdan sonra əmin oldu ki, müxtəlif məktəblərin şagirdlər özünüidarəetmələri tərəfindən birgə layihələrin həyata keçirilməsi ilə çoxlu sayda problem həll oluna bilər.

- Resurs Mərkəzi məktəblərin özünüidarəetmə nümayəndələrini dəvət etdi;
- Özünüidarəetmələr, Resurs Mərkəzinin köməyi ilə birgə təşəbbüslər işləyib-hazırladılar;
- Resurs Mərkəzinin dəstəyi ilə müxtəlif səviyyədə ünsiyyət başladı, o cümlədən həm yerli özünüidarəetmə, həmçinin beynəlxalq təşkilatlarla;
- Şagirdlər özünüidarəetməsinin nümayəndələri birgə işləyib yerli hökumətə layihə təqdim etdilər. Layihə, şagirdlərin mühüm ehtiyaclarını həll etmək məqsədilə məktəblər, yerli özünüidarəetmələr və maliyyələşdirən təşkilat/donorlarla əməkdaşlığı nəzərdə tuturdu.

**Nəticələr:**

- Yerli hökumət, şagirdlər özünüidarəetməsi tərəfindən təqdim olunan layihəyə müvafiq olaraq, dövlət mülkiyyətindən bir məkan ayırdı;
- Şagirdlər Özünüidarəetmələr Birliyi qrantı, intellektual fəaliyyətlər üçün ayrılan yerdə xarici məkan quraşdırılan layihə ilə əldə etdi; Texnika gətirildi, müxtəlif resurslarla təmin edildi.
- Şagirdlər Özünüidarəetmələr Birliyi yerli hökumətlə əməkdaşlığa başladı.